Baş redaktor: Şəhla Qəmbərova
Korrektor: İlahə Quliyeva

Redaktor: Aynur Turan
Bədii tərtibat: Aqil Tağıyev
Rəssam: Nigar Mustafayeva

Müəlliflik hüququ F.Köçərli adına Respublika Uşaq Kitabxanasına məxsusdur. Xüsusi icazə olmadan jurnalın surətini, elektron variantını çap etmək və yaymaq qanuna ziddir.

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası

Jurnalımıza abunə olmaq üçün aşağıdakı ünvana müraciət edə bilərsiniz.
Ünvan: Bakı AZ1022 S.Vurğun küçəsi 88
Tel: (+99412) 5970879,
Faks: (+99412) 5970851.

«Aspoliqraf LTD» nəşriyyat-poliqrafiya müəssisəsinin mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçib.
Qeydiyyat nömrəsi: № 3926 – 06.11.2014 2006-cı ilin noyabrından çıxır.
Təşkilati dəstək: Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Təsisçi: F.Köçərli adına Respublika Uşaq Kitabxanası

**web:** www.clb.az
**facebook:** fb.com/childlibazerbaijan
**twitter.com/**childlibaze
**instagram:** childlibazerbaijan
**youtube:** childlibazerbaijan




# Göy Qurşağı

UŞAQ VƏ YENİYETMƏLƏR ÜÇÜN JURNAL
№ 01 (77) / YANVAR-FEVRAL 2023



# Firidun bəy Köçərli haqqında...



Firidun bəy Köçərli Azərbaycan ədəbiyyatının tarixi inkişaf yoluna dair qiymətli mənbə təşkil edən əsərlər yaratmış və çoxcəhətli zəngin fəaliyyəti ilə ictimai-mədəni fikrin təşəkkülünə mühüm töhfələr vermişdir. Ölkəmizdə təhsil sisteminin milli əsaslar üzərində qurulması prosesində onun maarifçi ziyalı kimi apardığı işlər böyük əhəmiyyətə malikdir.

**İlham Əliyev,**
***Azərbaycan Respublikasının Prezidenti***



Firidun bəy Köçərli mənim qəlbimdə həssas bir insan, yorulmaz bir maarifçi kimi əbədi iz buraxmışdır. Millətimizin istedad və məharəti – fitrilərinə və əhvali – ruhiyyəsinə aşina olmaq istəyənlər möhtərəm bəradərim Firidun bəy Köçərlinin tərif etdiyi “Balalara hədiyyə” kitabçasından istifadə edə bilərlər.

**Abdulla Şaiq,**
***şair***



Firidin bəy ən sevgili ədiblərimizdəndir. Bu şəxs ədəbiyyat tariximizi yazmaq ilə bütün keçmişimizi diriltdi, şairlərimizin ülvi ruhlarını canlandırdı və həyati fikirlərimizi təbii yoluna saldı.

**Yusf Vəzir Çəmənzəminli,**
***dövlət xadimi və yazıçı***



Firidun bəy Köçərli Azərbaycan ədəbiyyatşünaslığı tarixində ilk dəfə olaraq ədib və şairlərimizin böyük əksəriyyətini əhatə edən ədəbiyyat tarixini yazmışdır. Azərbaycan ədəbiyyatı təkcə Firidun bəy Köçərlinin yaradıcılığında deyil, Azərbaycan ədəbiyyatşünaslıq elminin tarixində görkəmli yer tutur.

**Bəkir Nəbiyev,**
***akademik***



## Baş redaktordan



**Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

Salam, əziz oxucular, xoş gördük sizləri. Maraqlı və rəngarəng jurnallar sevirsinizmi? Elə isə, sizi qeyri-adi macəralar, nağıllar və məlumatlandırıcı hekayələr dünyasına aparan “Göy qurşağı” uşaq jurnalını oxumağa dəvət edirik. Ümidvarıq ki, hər səhifədə yer alan rəngarəng mövzu və heyranedici rəsmlər sizin könlünüzcədir.

“Göy qurşağı” jurnalı ilə siz ilk dəfə bundan on yeddi il əvvəl tanış olmusunuz. Bu illər ərzində sizlər və bizlər möhkəm, ayrılmaz dostlar olduq, bir çox yazıçıların yaradıcılığı ilə tanış olduq, zaman-zaman səhifələrin qanadlarında maraqlı səyahətə çıxdıq və dərələrdən-təpələrdən keçdik, məmləkət-məmləkət dolaşdıq sizlərlə. Bəzən dərin dənizlərin, okeanların dibinə daldıq, bəzən sirli kainata, qalaqtikalara səyahət etdik, bitkilərin, sıx meşələrin sehirli qapılarını açdıq, hətta heyvanların dilini bildik. Biz həmişə çalışdıq ki, “Göy qurşağı” jurnalı sizlər üçün parlaq və məlumatlı olsun. Heç yerdə oxuyub rast gəlmədiyiniz bilgiləri jurnalımızdan oxuyub əyləncəli vaxt keçirməyiniz üçün əlimizdən gələni əsirgəmədik. Səylə çalışdıq ki, bizimlə söhbət sizə sevinc və eyni zamanda, əsrarəngiz biliklər qazandırsın.

Bəli, “Göy qurşağı” jurnalı ilk dəfə on yeddi il əvvəl gəlib görüşünüzə. Təsəvvür edirsinizmi, jurnalın elə ilk nömrəsini oxuyanlar artıq böyüyüblər. Onlar indi başqa jurnallar və kitablar oxuyurlar. Siz də böyüyəcəksiniz, əziz balalar. Sehrli bir meşənin olduğunu və bəzən oyuncaqların canlandığını az qala unudacaqsınız. Odur ki, böyüdükcə uşaqlığın qapısını aralı qoymağı unutmayın. Çünki siz hələ də buradasınız!

Jurnalın qəhrəmanı - İncəhörüm nağıl aləmində otaqdan-otağa səyahət edir. O şən və inandırıcı şəkildə sübut edir ki, “Oxumaq ruhun qidasıdır”.

İstəkli balalar, biz jurnalın redaksiya heyətiyik və onun müəllifləri - yazıçılar, şairlər, rəssamlar olaraq istəyirik ki, jurnalımız oxucularımızın bir vətəndaş kimi formalaşmasına kömək etsin, sizin intelektuallığınızı artırsın. Sevindirici haldır ki, hər il bizə yeni oxucular qoşulur.

Xoş gəldiniz, dostlar! Ümid edirik ki, siz də jurnalın qanadlarında rəngarəng dünyamıza səyahət edəcək, şeirləriniz, nağıl və rəsmlərinizlə maraqlı müsabiqələrimizdə iştirak edib, yeni-yeni uğurlar qazanacaqsınız.

Bizim e-poçtumuza təkliflərinizi və fikirlərinizi göndərin. Bizimlə söhbət edin. Dostlarınız, sinif yoldaşlarınız, müəllimləriniz, ana - atanız və sizə maraqlı olan mövzular haqqında danışın. Və təbii ki, maraqlı kitablar haqqında. Unutmayın, kitab bilik mənbəyidir.

- ***Müsabiqələrimizdə iştirak edin.***
- ***Rəsmlərinizi və maraqlı sənət əsərlərinizi təqdim edin.***
- ***Dostlar və valideynlərlə ədəbi krossvordları və tapmacaları həll edin.***
- ***Azərbaycan və dünya uşaq yazıçılarının həyat və yaradıcılığı ilə tanış olun.***



## *Qüdrətli təfəkkür adamı*

# Firidun bəy Köçərli

160

Əziz balalar - jurnalın üz qabığında yer alan böyük maarifçi, istedadlı ədəbiyyatşünas, məhsuldar əmək və söz sahibi, böyük şəxsiyyəti tanıdınızmı? Əlbəttə, tanıdınız. O, uşaqların dostu, xalqın sevilən siması Firidun bəy Köçərlidir.

Bəzən tarix bəzi şəxsiyyətləri, dünyaya bir dəfə gətirir və o, təkrarsız olaraq qalır. Böyük hərflərlə deyə bilərik ki, Firidun bəy Köçərli təkrarsız idi. O, öz dövrünün deyil, bütün dövrlərin dahi şəxsiyyətidir. Onu böyüklü-kiçikli hamı sevir. Xalqın qürur mənbəyi sayılan bu ədəbiyyatşünas haqqında yəqin ki, çox eşidib, çox oxumusunuz. Gəlin, onun haqqında biliklərinizi bir daha xatırlayaq.

F.Köçərli ən müqtədir, ən sevimli ədiblərimizdən biridir. Mütəxəssislərin də təsdiqlədiyi kimi, folklorşünaslığın yaranması, şifahi xalq ədəbiyyatının toplaşması, sistemləşdirilib nəşr olunmasında Firidun bəy Köçərlinin böyük xidmətləri olmuşdur. O, ömrünün qırx ilini elmi yaradıcılığa həsr edib. Qiymətli əsərləri ilə xalqımızın böyük ədibləri sırasında özünə fəxri yer tutub. Neçə-neçə əsərləri ilə mənəvi aləmimizi zənginləşdirib, saflaşdırıb.

Azərbaycanca ilk ana dili dərsliyinin yazılması və ümumiyyətlə, bacarıqlı müəllim kadrlarının yetişməsində onun xidmətləri əvəzsizdir. O, əsl elm, maarif və tərəqqi insanı idi. Ölkədə hökm sürən savadsızlıq, gerilik onu çox narahat edirdi. Buna görə də, sanki əlinə nur almış Firidun bəy Köçərli məmləkətin hər yerini işıqlandırmağa, Vətənin ucqar kəndlərindən belə uşaqları, gəncləri axtararaq onların elmə, təhsilə cəlb olunmasında misilsiz xidmət göstərirdi. Köçərli yazırdı: “Burada ziyalı, müəllim və şairlər avama nisbətən çox azdır, yoxluq mənziləsindədir”. F.Köçərli bu azacıq ziyalı və şairləri axtarıb tapır, onlarla sıx dostluq əlaqəsi saxlayırdı.

Əfsanəvi dağlar diyarı Şuşa xalqımıza çox dahilər bəxş etmişdir. Heç şübhəsiz ki, belə dahilərdən biri də Firidun bəy Köçərlidir. Düşüncəsi, zəkası, əməli ilə xalqına zənginlik gətirən, şöhrətə yetirən Firidun bəy. Ən şərəfli ada, dərin ehtirama, ən yüksək mükafata sahib olan Firidun bəy. Dilimizin qayğıkeşi, təlim-tərbiyəmizin cəfakeşi Firidun bəy. Keşməkeşli tale insanı, mübariz şəxsiyyət, böyük alim Firidun bəy...

Firidun bəy Əhməd bəy oğlu Köçərli 1863-cü ilin 26 yanvarda - boranlı günlərində dünyaya göz açıb. 1872-ci ildə Mirzə Kərim Münşizadənin məktəbində fars dilini öyrənib. 1875-ci ildə Şuşada rus məktəbini

### Üşüdüm ha, üşüdüm

Üşüdüm ha, üşüdüm
Dağdan alma daşıdım,
Almacığımı aldılar,
Mənə cürm verdilər.
Mən cürmdən bezaram.
Dərin quyu qazaram.
Dərin quyu beş keçi,
Hanı bunun erkəci?
Erkəc qaya başında,
Hay elədim gəlmədi,
Çiyid verdim yemədi.
Çiyid qazanda qaynar,
Qənbər bucaqda oynar.
Qənbər getdi oduna,
Qarğı atdı buduna.
Qarğı deyil, qamışdı,
Beş barmağım gümüşdü.
Gümüşü verdim tata,
Tat mənə darı verdi;
Darını səpdim quşa,
Quş mənə qanad verdi.
Qanadlandım uçmağa,
Haqq qapısın açmağa.
Qapıçı qapı toxur,
İçində bülbül oxur.








oxuyub. Onun uşaqlıq illəri Şuşanın Köçərli məhəlləsində keçib. 1876-cı ildə Şuşadakı Realnı məktəbə daxil olan Firidun həmin məktəbin üçüncü sinfində oxuyarkən onun həyatında çox dərin, unudulmaz iz buraxan hadisə baş verib. Firidun bəy Qori Müəllimlər Seminariyasının müəllimi, Şuşaya tələbə aparmağa gələn Çernyaevski ilə görüşür. O, Şuşada bu böyük müəllimin seçdiyi ilk tələbələrdən biri olur. Atası Əhmədağa bəy dörd bacının bir  qardaşı olan Firidunun əvvəlcə Qoriyə getməsinə razılıq vermir. Lakin Firidunun təkidi, xahişləri qarşısında o, buna razı olur. Beləcə, Firidun bəy Qoriyə yola düşür və 1879-cu ildə Qori Müəllimlər Seminariyasına qəbul edilir.

***Seminariya həyatı.*** Buradakı təhsil. Tələbə və müəllimlərlə əlaqə gənc Firidunun dünyagörüşünə müsbət təsir göstərir. O, müxtəlif elmlərə yiyələnir, dünya ədəbiyyatı nümunələrini mütaliyə edir, pedaqogikaya həvəs göstərir. 1885-ci ildə Firidin bəy Qori Müəllimlər Seminariyasını uğurla başa vurur. Həmin ilin iyun ayında Firidin bəy Köçərli İrəvan Müəllimlər Seminariyasının Azərbaycan dili və şəriət müəllimi təyin olunur. 1887-ci ildə isə gimnaziyada mürəbbe müavini vəzifəsində çalışır. İrəvan Müəllimlər Seminariyasında çalışdığı dövrdə Firidin bəy maarif məsələsinə, təhsilin vacibliyinə dair məqalələr yazır. Zöhrazadə ilə birlikdə “Təlimi lisani türk” dərslik kitabını tərtib edir. “Təlimati-Sokrat” adlı fəlsəfə əsərinin nəşrinə nail olur. Tanınmış rus ədəbiyyatından Puşkin, Lermantov, Tolstoydan tərcümələr edir, tənqidi məqalələr yazır. On il orda çalışdıqdan sonra Firidun bəy Köçərli yenidən Gürcüstana qayıdır və 1895-ci ilin oktyabrında Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin Azərbaycan dili və şəriət müəllimi təyin edilir. Bundan sonra onun pedaqoji və ədəbi fəaliyyətinin yeni  dövrü başlanır. Qori Müəllimlər Seminariyası  adı ilə məşhur olan bu tədris ocağı bir çox Azərbaycan ziyalılarının yetişməsində əsas rol oynuyur.



Türk milləti öz məişətinə, adətinə dair yaratdığı qisim-qisim nağıl və hekayələr, laylalar, oxşamalar, bayatılar, sayaçı sözlər, nəsihətlər, gözəl mənzumə, hikmətamiz məsəllər, atalar sözləri, tapmacalar, yanıltmaclar heyvanlar aləmindəndən bəhs edən sayacı sözləri zamanla unudur,  xatirələrdən çıxarır. Firidun bəy Köçərli balalara hədiyyə olaraq xalqımızın yaratdığı nağıl və hekayələrdən,  məsəl və tapmacalardan, daş yaddaşımızdan bu günə qədər süzülüb gələn nümunələri araşdırıb, axtarıb bir yerə cəmlədi ki, siz bu günün kiçikləri, sabahın isə  aydın insanları olaraq  əsrlərin sinəsindən qopub gələn bu mədəni irsimizi-özümüzü unutmayasınız. Balaların ruhuna ana südü ilə birgə süzülüb gələn laylalar, oxşama, bənzətmə və s. nümunələr məzmununu xalqımızın məişətindən götürülmüş və onun dili ilə söylənmiş əsərlərdir.  O əsərlər ki, elin şirin dili ilə, elin sözü ilə söylənmişdir. Axı, elin sözü, elin özü qədər qədimdir. Bəsit, amma təbii, canlıdır.

**İstəkli balalar, heç bilirirsiniz, 160 yaşlı Firidun babanın siz uşaqlara nə hədiyyəsi var? Elə böyük hədiyyə ki, Azərbaycan balaları nəsil-nəsil o kitabla böyüyüyəcək. Elə nurlu hədiyyə ki, hər uşağın yolunu işıqlandırıb, aydın sabahlara aparacaq.**

*Ardı gələn sayımızda*




## *VUR NAGARA, ÇIX QIRAĞA*

### *(Oyun sözləri)*

İynə-iynə,
Ucu düymə,
Bal ballıca,
Ballı keçi,
Şam ağacı,
Şatır keçi,
Qoz ağacı, qotur keçi.
Hoppan,
Huppan,
Qırıl.
Yırtıl,
Su iç -
Qurtul.
Əmim oğlu,
Uzunbığlı,
"Haldırım" dedi,
"Huldurum" dedi,
Göyə bir ağac atdı.
Qarğı sapı
Gül budağı,
Motal-motal,
Tərsə motal,
Ellər atar,
Qaymaq qatar.



Qızıl Fonddan seçmələr

Cəlil Rəfiyev

# QUŞ YUVASI




Bəxtiyarın gözləri tut ağacının gövdəsinə qonub uzun dimdiyi ilə onu dimdikləyən, tuk-tak, tak-tuk salan ağacdələnə dikilmişdi. Şəhərdə yaşadığından ağacdələni belə yaxından görməmişdi. Ancaq qardaşının "Zoologiya" kitabında bu quşun şəklinə baxmışdı.

Atası da quşlardan danışanda deyirdi ki, ağacdələn bizim dostumuzdur. O, meşə həkimidir. Zərərli böcəkləri, qurdları məhv edir.

Bəxtiyar kəndə, Zinyət nənəsigilə qonaq gəlmişdi. Burada gördüyü hər şey onun üçün yeni və maraqlı idi.

Quşların civiltisi, xoş nəğmələri gecə-gündüz kəsmək bilmirdi. Bəxtiyar dönüb yanında dayanan atasına baxdı.

- Ata, - dedi, - gəlsənə quşlar üçün yuva tikək? Qoy onlar həmişəlik burada, nənəgilin bağında qalsınlar, nənəmə mahnı oxusunlar. Axı, biz gedəndən sonra o tək qalıb darıxar.

Oğlunun bu sözünə ata gülümsündü:

- Oğlum, - dedi, - yaxşı fikirdi. – Ancaq quşlar çoxdur, onlar azad qanad çalmağa, uçmağa öyrəşiblər.

- Neylək, beş-on yuva düzəldərik. Uçub başqa yerlərə getsələr də, gələndə evlərini hazır görərlər.

- Düzəldək, - deyə ata razılaşdı.

Bəxtiyarın sevinci aşıb-daşdı. Onlar taxtadan düzəltdikləri quş yuvalarını ağaca bağladılar. Quşlar cəh-cəh vurub bir budaqdan digərinə uçur, dimdiklərində gətirdikləri otu, yunu, pambığı yuvalarına döşəyirdilər.

Bir gün Bəxtiyar gördü ki, ağacdələnin yuvasından başqa bir quş çıxıb qanad çaldı. Bu, sarıköynək idi. Mavi, al-əlvan rəngə çalan tükləri vardı. Bir azdan sonra dimdiyində pambıq gəlib yuvaya girdi.

Bəxtiyar atasını görcək dedi:

- Atacan, sarıköynək ağacdələnin yuvasına girib.

Ata:

- Bax, bu yaxşı deyil, - dedi. – Gərək hər kəs özünə yuva qursun. Ağacdələn gələn kimi onu qovacaq.

... Bəxtiyar nahar etmək üçün yenicə otağa girmişdi ki, quşlarının qışqırtısını eşidib pəncərənin qarşısına qaçdı. Quşlar dəstə-dəstə havaya qalxır, yenidən aşağı şığıyaraq həyəcanla civildəşirdilər. Bəxtiyar birdən dönüb atasına dedi:

- Atacan, tez ol, bağçaya gedək, nə isə olub!

Ata-bala bağçaya qaçdılar. Tut ağacının yanına çatanda alacəhrənin yuvasından bir ilanın asıldığını gördülər. Bəxtiyar qorxub geri çəkildi. Atası əlinə bir ağac alıb onu yuvadan qovdu. İlan sürüşüb yerə düşdü. Yəqin quş balalarını udmaq istəyirmiş.

Quşlar balanın sovuşduğunu görüb ağacın yaşıl budaqlarına qondular.

Alacəhrə də öz yuvasına, Bəxtiyarın xilas etdiyi ətcə balalarının yanına girdi....

# Quşların nəğməsi

Səhər tezdən çıxdıq bağa,
Quş qonmuşdu hər budağa.
Baxdı sola, baxdı sağa
Qaranquşlar civildədi,
Bildirçinlər cikkildədi,
Cəh-cəh vurdu sarı bülbül,
Sevindi bağ, sevindi gül.

Quşlar mahnı oxudular,
Dedik: - Əcəb səsiniz var.
Bahar deyil sizsiz bahar,
Biz heç sizə daş atmarıq,
Budaqlardan uçurtmarıq.
Qayğınızı çəkərik biz,
Sizə yuva tikərik biz.

Qonaqsınız hər il bizə,
Dən səpərik hər gün sizə.
Qulaq asıb nəğmənizə
Söyləyirdik: - A şən quşlar,
Bu ellərdə yeriniz var.
Qonaqlara hörmət etmək
Xoşdur bizə nəğməniz tək.

Hikmət Ziya






# Yeni kitablar bizim rəflərimizdə




Kitabda söz yoxdur, hekayə var. Şəkillərə baxaraq baş verən hadisələri izlə, qəhrəmanların nə hiss etdiyini danış. Hər şey sənin xəyal gücündən asılıdır. Kitabın sonunda isə səni kiçik bir sürpriz gözləyir.




Hörmətli valideynlər və müəllimlər! Bu vəsait balaca dostlarımıza riyaziyyat fənnini tanıtmaq və sevdirmək məqsədi ilə tərtib olunmuşdur.




Bir gün məktəbdə Laləyə ev tapşırığı verilir. O kiməsə məktub yazmalıdır. Amma Lalə qeyri-adi məktub yazmaq istəyir. Beləliklə, o Kosmosa məktub yazmağa qərar verir. Məktubu yazır, zərfə qoyur. Bəs məktubu kosmosa kim aparacaq?

Это красочная книга про ферму познакомит ребёнка с домашними животными и их детёнышами. Малыш узнает сколько всего интересного и нужного делают каждый день жители фермы. Не забудьте найти маленького мышонка на каждом развороте!









Kitab uşaqların diqqət və təfəkkürünü inkişaf etdirmək, onları əyləncəli çalışmalarla mütaliəyə yönəltmək, erkən yaşda düşünmə və analiz qabiliyyətini artırmaq üçün tərtib edilmişdir.

Bu vəsait “Bağça uşaqları” və “İcma Əsaslı Məktəbəqədər” qrupları üçün tövsiyə olunur.







Hekayədə balaca dovşan dostu bayquşun çəkdiyi şəkillərlə küçük dostlarını dünya səyahətinə çıxarır. O, rənglərin gözəlliyini möhtəşəm mənzərələrlə, çox uzaqlara apararaq göstərir. Uşaqlara rənglərin sirrini kəşf etməyin ən gözəl yollarından biri bu hekayədən keçir.

Эти стихотворения удивительно простые и легко запоминаются, и в то же время каждое из них наполнено особым смыслом. Вот почему их так любят и дети, и взрослые. А смешные иллюстрации Олега Гончарова отлично дополняют книгу.







Читайте истории о забавных животных, рассматривайте красочные иллюстрации и обсуждайте прочитанное с ребенком. Поговорите вместе о том, что чувствует каждый герой истории и почему.




Каждой букве соответствует картинка-ассоциация, внешне напоминающая эту букву, и весёлое двустишие. Благодаря этому пособию ребёнок легко запомнит, как выглядит буква и какой звук она обозначает.

Kitab sinif yoldaşları və müəllimlərlə dil tapa bilməyən və dəfələrlə məktəb dəyişən Elay Nikersonun disleksiyaya qalib gəlməsindən bəhs edir.







Bu kitabda yazıçının nağılları toplanıb. Həm də bir baba kimi öz nəvələrinə və eyni zamanda, bütün balalara hədiyyədir.




Müəllif Qarabağ müharibəsinin qanlı-qadalı günlərini öxünəməxsus şəkildə oxucuya çatdırır. Hekayələrdə canını torpaqlarımızın işğaldan azad olunması uğrunda fəda edən şəhidlərimizin həyatı, döyüşləri, zabit və əsgərlərimizin igidlikləri təsvir edilir.




# THE BEEKEEPER



*Written by:*
**Solmaz Amanova**

- Yes, so one day the old beekeeper accidentally saw a black snake helping a sick white snake to swim in the hot spring.

"Apparently, the snake is dying and I also have reached my end", – the beekeeper thought. But a few days later when he saw the healthy white snake floating in the healing spring, the black snake carrying something to the magic stone, he realized that, there was a mystery here. The beekeeper immediately decided to bathe in the spring. After a few days he felt unprecedented energy. His legs no longer hurt. Thus, the secret of the healing water of Istisu was revealed. Everyone in the village was stunned by the sudden recovery of the beekeeper. They asked him how he treated his feet and which doctor he went to. This is what the beekeeper thought: "If I tell them about snakes, they won`t believe me. It`s better to say that I found a prescription from the book "Law of Medicine" by Dr. Ibn-i Sina."(Avicenna)

- Did people believe him?

- They asked the beekeeper for Ibn-i Sina`s book and the ancient recipe for foot pain. Then he had to take them all to the hot spring and show them the stream of water that flew into the Vilash River.

The hot water flows down a hill surrounded by iron trees and joins small rivers to form ponds which are inhabited by healing fish. They treat various diseases with their saliva. The small bite of Harra Rufa fish helps to clean the skin from dead particles.

- Do you want these fish to eat the viruses I have? – Voytek asked.

- If you have a disease, then I'm sick too, but I feel good. I often come here to bathe in this magic water and I never get sick. I also have to take a bath in Istisu. So talking to each other they reached the location of the spring.

- How beautiful it is here! And why is the water burning here? – Voytek was interested.

The water is burning because it contains a lot of minerals and sulfur.

- Did they see the burning water by chance? – Voytek asked.

- Someone saw that the spring water was ignited by the Sun's rays and then he himself burnt the water with matches. After that the name of this spring was Yanarbulaq –the burning spring.




**Юлия Керимова**

# *ПОТЕШКИНА ДОРОГА*

Потешка вздрогнул от удовольствия, увидев во сне, что иголочки его на спинке уже отвердели и стали почти совсем коричневыми. Значит, он быстро растет, и совсем скоро станет взрослым. Рядом спала мама. Он осторожно, стараясь не разбудить ее, перевернулся на другой бок, чтобы видеть мамино лицо.

Было еще совсем темно, а рядом с мамой очень тепло и уютно, и он сладко зажмурился: можно еще поспать. Апрель, когда ежикам пора выходить из норок, еще не скоро.

- Если я думаю, значит, уже не сплю? – спросил себя Потешка. Мама говорила, что можно думать и во сне, - вспомнил он, поглядев на маму, и осторожно потерся носиком о ее нос. Он всегда так делал, когда хотел заснуть.

Потешка был еще маленький, но мама уже с гордостью говорила соседкам ежихам, что он умен не по годам. Он с нетерпением ждал, когда станет светло, тепло и просторно, и можно будет вылезти из норки и отправиться на поиски паучка, червячка или даже мышки. Он мечтал найти самого большого червяка и принести его маме.



А еще мама говорила, что самый страшный враг ежиков – это Дорога.

- Никогда не ходи к Дороге, Потешка, - както раз перед сном сказала ему мама.

- А где эта Дорога? – спросил Потешка.

- Дорога проходит рядом и делит наш лес пополам. Там всегда очень шумно и страшно.

Много ежиков не вернулось к своим мамам после того, как пошли туда. Никогда не подходи к ней близко, Потешка!

По вечерам мама рассказывала ему истории о храбрых ежиках, и про то, что они не боятся змей, а от острых зубов могут прятаться под своими иголками. Но ему почему-то больше всего хотелось слушать про Дорогу. Мама знала только одну коротенькую историю - как один ежик случайно подошел близко к Дороге, и ему надо было сделать очень-очень много шагов, чтобы перейти на другую сторону. А он не успел. И не вернулся к своей маме.

- А куда он ушел?- всегда спрашивал Потешка. Но тут мама всегда терлась носом о его носик, и он засыпал, думая, что дослушает конец истории во сне и обязательно узнает, куда же ушел ежик, который смог сделать много шагов по Дороге.

Потешка представлял Дорогу то рыжей, то бурой, то пушистой, то крылатой, то крикливой, то тихой, но всегда - с острыми зубами и ярко-желтыми глазами.

Прошло немало времени, иголки у Потешки стали совсем крепкими и темными. Он очень гордился ими: ведь чем крепче и темнее становились его иголки, тем сильнее становился он сам. Потешка учился защищаться от врагов и собирать еду.

Как-то раз Потешка кружил вокруг своей норки вместе с другими ежиками. Они фыркали друг на друга и спорили, у кого громче получается. Вдруг Потешка заметил большого червяка, который полз в сторону другой норы, и быстро побежал за ним, семеня лапками и считая шаги. Он всегда считал свои шаги, помня, как его учили делать их много и быстро. Преследуя червяка и считая шаги, он так увлекся, что не заметил, как ушел далеко от друзей. Он почувствовал незнакомые запахи и остановился. Ему вдруг стало страшно.









**Продолжение прочитайте на наших полках**

# BİR QIŞ AXŞAMI

**ŞƏLALƏ ƏMRAHOVA**
***F.Köçərli adına Respublika Uşaq Kitabxanasının əməkdaşı***

Nigarın səbirsizliklə gözlədiyi qış tətili gəlib çatmışdı. Onun bu günlər üçün planı var idi: Kitabxanadan aldığı kitabları oxuyacaq, albomda oxuduğu hekayələrin qəhrəmanlarının şəklini çəkəcəkdi. Hava xoş olanda isə anası və özündən 4 yaş kiçik bacısı ilə birlikdə gəzintiyə çıxacaq, bolluca əylənəcəkdi.

Nigar bacısını çox istəyirdi. Beş yaşlı bu qızcığazın adı Nübar idi. Qızılı saçlı, al yanaqlı Nübar çox şən, mehriban bir qızıydı. O da Nigarı çox sevər, bacısı məktəbdə olanda onun üçün darıxardı. Lakin ata, ananın bu kiçik qızlarına dikilən baxışlarında həmişə bir kədər sezilirdi. O, danışa bilmirdi. Onlar Nübarın da ata, ana, bacı kəlməsini, şirin söhbətlərini eşitmək istəyirdilər. Həkimlər ciddi bir səbəb olmadığını söyləsələr də Nübar hələ də danışa bilmir, öz fikirlərini qırıq-qırıq səslərlə ifadə edirdi.

Tətilin ilk günü hava çox soyuq idi. Şaxtalı külək pəncərələrə çırpılır, həyətdəki yarpaqsız qalmış ağacları var gücü ilə əsdirirdi.Günorta yeməyindən sonra hərə öz işi ilə məşğul olurdu. Ana paltar ütüləyir, Nübar şəkilləri rəngləyirdi. Nigar oxuduğu kitabı kənara qoyub mətbəxə getdi. Özünə qrafindən su süzüb pəncərə önünə keçdi. Başını şüşəyə söykəyib həyətə baxmağa başladı. İki beş mərtəbə binanın arasına salınmış bu həyətdə çox hündür, qollu budaqlı qocaman ağaclar sıra ilə əkilmişdi. Bu soyuq günlərdə həyətdəki qırmızı, yaşıl rənglərlə boyanmış skamyalar çox kimsəsiz görünürdü. Nigar bir anlığa yayı, həyətdə oynadığı oyunları xatırladı. Bir dəfə voleybol oynayarkən oyun yoldaşları Sevincin atdığı top qarağacın ən hündür budağında ilişib qalmışdı. Həyətin oğlanları nə qədər çalışsalar da, topu ağacdan düşürə bilməmişdilər. Yalnız bir güclü payız küləyi topu yerindən tərpədib aşağı, yerə atmışdı. O günləri təbəssümlə xatırlayan Nigarın baxışları qeyri-iradi olaraq həmin ağaca tərəf çevrildi. Bu vaxt o ağacın dibində dayanıb narahat baxışlarla yuxarı budaqlara baxan qonşu qız Nərmini gördü. Nigar Nərminin baxdığı istiqamətə baxdıqda ağacın lap yuxarı budaqlarının haçasında ağ pambıq kimi bir şey olduğunu gördü. Diqqətlə baxanda onun pişik olduğunu yəqin etdi. Narahatçılıq hissi onun qəlbini bürüdü. Pişik ora nə üçün çıxıb? Niyə aşağı enmir? Nərmin əlindəki torbadan yerə yem ataraq pişiyi səslədi. Nigarın gözünü dikdiyi ağ pambıq hərəkətə gəldi. Əvvəl bomboz qulaqları, sonra isə dümağ bədəni göründü. Ağacın budaqsız gövdəsilə asta-asta enməyə başladı. Amma sadəcə bir neçə addım. Və yenə geri, ağacın haçasına qayıdıb, yazıq səslə miyoldamağa başladı. Nərmin nə qədər dilə tutsa da xeyri yox idi, qorxu pişiyə qalib gəlirdi. İndi Nigar əmin oldu ki, pişik çıxdığı hündürlükdən enə bilmir. Bəs nə etməli? Ana tez telefona əl atdı. Qonşulara xəbər verdi. Nə edəcəklərini heç kim bilmirdi. İlk dəfə idi belə hadisə ilə üzləşirdilər. İş saatı qurtardığından kömək edə biləcək idarələrin telefonu cavab vermirdi. Qonşular həyətə düşməyə başladılar. Hamı ağacın altına yığışıb pişiyi aşağı enməyə səsləyirdi. Təəssüf ki, bütün cəhdlər faydasız qalırdı...

Axşam işdən qayıdan atanı Nigar dəhlizdə qarşıladı. Bugünkü hadisəni təşvişlə danışmağa başladı. Əlindəki çantanı yerə qoyan ata susub bir xeyli dayandı. Sonra heç nə demədən “ siz gözləyin, görüm nə edirəm” deyərək evdən çıxdı. Hər üçü, ana və qızları pəncərə önünə qaçdılar. Və həyacanla atanın hərəkətlərini izləməyə başladılar. O, hər iki əli ilə budaqdan mohkəm tutaraq pişiyin qaldığı hündürlüyə tərəf qalxırdı. Ayaq üstdə dayanmağa taqəti qalmayan pişik isə ağacın haçasından sallanıb qalmışdı. Ata onun yanına çatan kimi pencəyini çıxarıb pişiyi onun arasına qoydu. Bir əli ilə ağacdan tutaraq asta-asta aşağı enməyə başladı. Bayaqdan atanı izləyən ana və qızları qapıya qaçdılar. Ata pencəyi açan kimi pişik yerə tullanıb çaşqınlıqla evin o başbu başına qaçmağa başladı. Həmin axşam ailə qutudan düzəltdikləri yuvada şaxtadan, aclıqdan, qorxudan, ən əsası ölümdən xilas etdikləri pişiyin yumrulanıb yatmağına tamaşa edir, özlərində bir rahatlıq hiss edirdilər.

Səhər Nigar oyananda Nübarı yatağında görmədi. Cəld paltarını geyindi. Qapıya yönələndə yerindəcə donub qaldı. Bu bacısının səsi idi. Həsrət ilə gözlədikləri həmin o səs! Onları səsləyirdi: “Gəlin baxın, pişiyimiz oyanıb!”

## QAR BULUDU

Dağların üstündən bizlərə tərəf,
Qara bulud gəlir çox ağır-ağır.
Soyuq qış havası çökübdür yerə,
Hamı göy üzünə şübhəylə baxır.
“Qar gəlir! “ Söyləyir bütün insanlar.
“Güman ki, çox keçməz, indicə yağar.
Çıxarın, uşaqlar, xizəkləri siz,
Bilirik çoxdandır qar gözləyirsiz !”
Biz də sevinərək, tez hazırlaşıb
Gülərək evlərdən yola qaçırıq.
Toplanır hay-küylə hamı bir yerə,
Səsimiz yüksəlir uca göylərə !
Vaay ! Bulud nə yaman qorxuya düşür !
Bir anda yox olub, quş təki uçur !

## AYI BALASI ARMUD AĞACINDA

Armud ağacını görüb uzaqdan,
Qonur bala ayı iştaha gəlir.
Budaqdan budağa yuxarı qalxıb,
Bütün armudları bir-bir yoxlayır.
Birinci armud heç yetişməmiş
İkinci ... İlahi, bu ki qurd imiş.
Üçüncü ... Çürükmüş, halı pis imiş.
Dördüncü iynəli, hirsli arıymış.
Beşinci sapsarı, şirin armudmuş.
Bu vaxt bərk külək əsdi.
Armud ağacını əydikcə əydi.
Budaqdan möhkəmcə yapışsa da o,
Dayana bilməyib aşağı düşdü.

**Elke Breunling**
**Alman uşaq şairi**

***(Alman dilindən tərcümə edən: Şəlalə Əmrahova)***

# UŞAQLARINIZIN EHTİYACLARINI BAŞA DÜŞÜN



Valideyn guşəsi

***Böyüklərimiz illər əvvəl, "XXI əsr" deyə bir zamandan bəhs edəndə, sanki uzaq gələcəkdən danışırdılar. Amma biz böyüdük və XXI əsrin 22 ilini geridə qoymuşuq. Bu zaman kəsimi bir körpənin böyüyərək cəmiyyət içərisinə qədəm qoyması üçün kifayət qədər böyük müddətdir. Bəs bu müddət ərzində cəmiyyətə layiqli bir vətəndaş verə bilmişikmi? "Z" nəsli adlandırılan bu vətəndaşlar üçün uşaq vaxtlarında nələr etmişik və nələri etməliydik, etməmişik?***

Son zamanlar uşaq tərbiyəsi barədə çox deyilir, yazılır. Tərbiyənin haradan və necə başladılması çox önəmlidir. Uşaqlar fərqli ehtiyaclara malik olurlar. Buna görə də uşağınızın ehtiyaclarını başa düşmək və onlara uyğun davranmaq mühüm rol oynayır. Onların hissi, fiziki və zehni ehtiyaclarını nəzərə almaq lazımdır. Xüsusiyyətləri və sevdiyi məşğuliyyətlər tapılmalıdır. Onların bacarıqlarına uyğun təhsil planı hazırlanmalıdır.

## Hədlər qoyun

Uşaqlar üçün hədlər qoymaq onlara etibar və təhlükəsizlik hissi verir. Hədləri açıq şəkildə qoyun və uşağınızın nə üçün bu hədləri qoyduğunuzu başa düşdüyündən əmin olun. Bu hədləri pozarsa, ciddi məhdudiyyətlər qoyaraq hədlərin necə ciddi olduğunu başa düşməsini təmin edin.

## Məqsədəuyğun müsbət əlaqə qurun

Uşaqlarla müsbət bir əlaqə qurmaq onların etibarını qazanmanızı təmin edir. Onlara vaxt ayırın və istəkləri ilə maraqlanın. Anlayışlı və səbirli olun. Uşağınızın hisslərini başa düşməyə çalışın və özünüzü onların yerinə qoyun.

## Nümunəvi davranışlar göstərin

Uşaqlar eyni zamanda nümunəvi davranışları öyrənmək üçün model axtarırlar. Uşağınıza istədiyiniz davranışları öyrətmək üçün özünüz bu davranışları göstərin. Beləliklə, uşağınız sizin nümunəvi davranışlarınızı izləyərək müsbət imic formalaşdırır.

## Sevgi və dəstək verin

Uşaqlarınıza sevgi və dəstəyinizi göstərmək onların özünə hörmətini inkişaf etdirir. Uşağınızı tez-tez bağrınıza basın, onu dəstəkləyin və sevildiyini hiss etdirin. Uğurlu olduğu zaman onu mükafatlandırın, uğursuzluqlarında dəstək göstərin.

Bu tövsiyələr uşaq tərbiyəsində uğurlara yardım edəcək. Əlbəttə, hər uşaq fərqlidir və özünəməxsus ehtiyacları var. Bu səbəbdən uşaqlarınıza xüsusi davranışlar və təlim proqramları hazırlamaq vacibdir.

Uşaqlarla apardığı epistemologiya tədqiqatları ilə tanınan İsveçrəli inkişaf psixoloqu və filosofu Jan Piaje bildirir ki, uşaqlar təcrübələri aşkarlayaraq və öyrənərək böyüyürlər. Buna görə də uşaqlarınızın aşkarlamasına icazə verin və öyrənməni maraqlı hala gətirin.

## Proksimal inkişaf zonası

İllər əvvəl psixoloq Lev Vygotsky uşaqların öyrənməsi üçün "zona of proximal development" (Proksimal inkişaf zonası) konseptini təqdim edib. Bu, bir uşağın böyüyün və ya başqa uşağın köməyi ilə yeni bacarıq öyrənə biləcəyi optimal bölgəni ifadə edir. Bu səbəbdən uşaqlarınızın öyrənmə prosesində yanında olun və onlara kömək edin. Əslində proksimal inkişaf iki anlayış arasında yerləşdirilən ara mərhələdir: həqiqi inkişaf zonası və potensial. Həqiqi inkişaf şərtləri aydınlaşdırmaq üçün tapşırıqların avtonom şəkildə və hər hansı bir kömək və dəstəyə ehtiyac olmadan həyata keçirilməsidir. Buna misal olaraq təkbaşına toplama və çıxarma əməliyyatları edə bilən 8 yaşlı bir uşaq ola bilər. Potensial inkişaf səviyyəsi ilə əlaqədar olaraq, bir müəllimin və ya sinif yoldaşının köməyini aldıqdan sonra uşağın çatacağı zonadır.

Mütəxəssislər bildirirlər ki, öyrənmək təcrübələrdən əldə edilən məlumatlardır. Buna görə də uşaqlarınıza sadəcə bəzi şeylər öyrətmək əvəzinə, onların təcrübələrini də artırın, təcrübələrə yönəldin. Öyrənmə təcrübəsi onların başa düşməsinə daha çox kömək edəcək. Çalışın uşaqlar öz öyrənmə yolunu tapsınlar. İtalyan doktor Maria Montessorinun öz təhsil metodu var idi. Onun təcrübəsində uşaqların sərbəst seçə biləcəkləri və templə irəliləyə biləcəkləri materiallar təqdim olunur. Bunu nəzərə alaraq deyə bilərik ki, uşaqlara öz öyrənmə prosesinə kömək etmələri üçün azadlıq və seçim imkanları verilməlidir.

Bu elm adamlarının fikirləri, uşaq təhsilində elmi və nəzari perspektiv təqdim edir. Belə fikirlər uşaqlarınızın öyrənmə prosesini başa düşmənizə və onlara ən yaxşı dəstəyi verməyinizə kömək edə bilər.

Məqalənin əvvəlində də deyildiyi kimi, cəmiyyətə lazımlı bir şəxsiyyətin yetişməsi onun körpəlikdən yetişdirilməsi ilə başlayır. "Z" nəsli əvvəlki nəsillərdən fərqli olaraq texnologiya əsrində böyüdüyü üçün onlara qarşı yanaşma tərzimizi dəyişməliyik. Ötən əsrin 80 və ya 90-cı illərindəki övlad tərbiyəsi ilə XXI əsrin 20-ci illərindəki övlad tərbiyəsi arasında Yerdə piyada gəzməklə Marsa uçmaq arasındakı qədər fərq var.

**Aqil Tağıyev**
F.Köçərli adına Respublika
Uşaq Kitabxanasının əməkdaşı




Dostlar, sizin üçün maraqlı bir təklifimiz var! Şübhəsiz ki, çoxunuz artıq baharı səbirsizliklə gözləyirsiniz. Bilirik ki, gözünüz, könlünüz canlı rənglər və yaşıllıqlar üçün darıxır. Gəlin onu özümüz yaradaq! Elə isə başlayaq.



**FEVRAL AYINI NAĞILLAR AYI ELAN EDİRİK!**

Biz sizin üçün inanılmaz kartlar paketi hazırlamışıq. Onlar ayın günlərinə görə bölünür. Belə ki, yaza qədər bölərək hər gün üçün bir kart olmaqla və 28 kart yaradırıq (və daha bir neçə ehtiyat hissələri). İstənilən vaxt başlaya bilərsiniz.

Qaydalar çox sadədir: kartları çap edin, kəsin və qarışdırın.

Hər gün bu yığından bir kart çəkin və şəklə uyğun bir hekayə yazın. Öz məktəbli dostlarınızla birlikdə hər gün yeni bir nağıl yaza bilərsiniz. Böyük yaşlı uşaqlarla isə tək bir hekayə xəttini davam etdirə bilərsiniz. Bu maraqlı oyun sizin düşüncə qabiliyyətinizi artıracaq və təxəyyülünüzü gücləndirəcək. Bəlkə də bu yazılarınızla sabahın böyük bir yazarı ola bilərsiniz və bu bir başlanğıcdır.

Sizin üçün tərtib etdiyimiz kartlar paketi canlı və təbii rənglərdən ibarət şəkillərdir.

Dostlar, maraqlı hekayələrinizi bizimlə də bölüşmək istəyirsinizsə, onları jurnalın elektron ünvanına göndərə bilərsiniz.

Beləliklə, **BİR NAĞIL DA SƏN DANIŞ...**





# “Nənə və babalar super qəhrəman kimidirlər”

## Fausto Brizzi

Ailələrimizin ağıllı, dünyagörüşlü böyüklərə–nənə və babaya həmişə ehtiyacı var.. Nənə və babalar təkcə bizim nağıl dünyamız deyil, həm də ağıl dünyamızdır. Bir çox Avropa ölkələrində “Nənələr və babalar” günü qeyd olunur. 2008-ci ildən 8 fevral günü Beynəlxalq Nənələr və Babalar Günü kimi qəbul olunub və bu təşəbbüsü həm YUNESKO, həm də Avropa Birliyinin mədəniyyət üzrə komissiyaları dəstəkləyib. Həmin gün yaşından asılı olmayaraq nənə və babası olan hər kəs onların ziyarətinə gedir. “Nənələr və babalar” günü bir çox Avropa ölkələrində qeyd olunur. Fransada martın ilk bazar günü, İtaliyada oktyabrın ilk bazar günü, Estoniyada sentyabrın ikinci bazar günü, Polşada isə nənələr günü (21 yanvar) və babalar günü (22 yanvar) ayrı-ayrı bayram edilir. Nənələr və babalar günü ilk dəfə Kanada sakinləri tərəfindən qeyd olunmağa başladı. Bu gün bütün ailə ənənəvi olaraq ən şərəfli yerin yaşlı nəslin nümayəndələrinə verildiyi masaya yığılır, çox vaxt bütün izdiham əyləncəli bir gəzintiyə çıxır. Polşada bu ecazkar bayram ardıcıl iki gün qeyd olunur və onlardan birində nənə nəvələrini evdə zəngin bir süfrədə qarşılayır və çay içdikdən sonra gəzintiyə çıxır. Nəvələr ümumiyyətlə bu tədbiri səbirsizliklə gözləyirlər və sonsuz əziz nənə və baba üçün kiçik sürprizlər hazırlayır, onları şeir təbrikləri və mahnıları ilə, xüsusi məhəbbətlə hazırlanmış əl işləri ilə sevindirirlər. Fransa da Avropanın geri qalan hissəsindən geri qalmır və bu gün uşaqlar, yaşlı nəsil ilə birlikdə, yerli turizm şirkətləri tərəfindən xüsusi olaraq onlar üçün təşkil edilən məhəllə ətrafında bir səyahətə çıxırlar. Bu günün keçirilməsinin ailə institutunun möhkəmlənməsində, nəsillərin bir-birini tanımasında və bir-birinə hörmət etməsində böyük əhəmiyyəti var.



*Əziz uşaqlar, bu ay əlamətdar günlərdən biri-8 Fevral Beynəlxalq Nənələr və Babalar Gününü qeyd etdik. Nənələr, babalar qədər əziz olan bu gün hər birimiz üçün xoş ovqat yaradır. Biz bilirik ki, sizin hər biriniz nənə-babalarınızı çox sevirsiniz, elə deyilmi? Ancaq kimin daha çox sevdiyini bilmək üçün sizləri bir az sual-cavaba çəkmək istəyirik. Qulağımıza “mən”, “mən” deyə çoxlu səslər gəlir... Elə isə buyurun.*

***Nənə və babanızı hansı davranışınız ilə sevindərə bilərsizniz?***

***Lazım gəldikdə nənə-babanıza kömək edirsinizmi?***

***Sizcə onların ən böyük ehtiyacı nədir?***

***Əgər nə vaxtsa siz nənə-babalarınıza nağıl danışmalı olsanız, onlara nə nəql edərdiniz?***

## Babamın beli

***Diblərini belləyir***
***Bağçadakı gülün də,***
***Gah beli əlindədi,***
***Gah da əli belində.***
***Babam deyir ki, qorxma,***
***Əlini belə öyrət,***
***Bel pas atmasın deyə***
***Belini ələ öyrət.***
***Gah bellə işləyirəm,***
***Gah əlimdədir yabam.***
***Beli ağrıyan kimi***
***Belə söykənir babam.***

## Babam qocalıb

***Babam məni öyrədib,***
***Alışmışam zəhmətə,***
***Qırmızı almaları***
***Toplayıram səbətə.***
***Əriyin budağına,***
***Bircə-bircə minmişəm,***
***Armudu dərməyi də***
***Babamdan öyrənmişəm***
***Mənənciri, heyvanı***
***Nərdivanla yığıram,***
***Gilasa, gilanara***
***Pişik kimi çıxıram.***
***Babam bu ildən mənə***
***Daha demir balaca.***

***Əlmdar Quluzadə***



# Nəğməkar quş nə deməkdir?






***Ən əsrarəngiz təbiət hadisələrindən biri də quşların cəh-cəh səsidir, yəni nağmələridir. Onların səsi eşidən hər kəsə xoş ovqat yaradır. Maraqlıdır, quşlar niyə oxuyur? Gəlin bu suala birlikdə aydınlıq gətirək. Belə ki, bizim ruhumuzu oxşayan quşların nağmə oxumasının səbəbi sırf bioloji amillərlə bağlıdır.***

- *Ərazinin təyin edilməsi. Bəli, quşlar da öz yerlərini ayıraraq qoruyurlar. Deməli, oxumaqla onlar yuvalarını, balalarını və yerlərini qoruyurlar. Axı, yəqin ki, hamı kiçik quşların necə oxuduğunu, sürətlə budaqdan-budağa atıldığını dəfələrlə görüb. Beləliklə, onlar budaqlarını (və ya bir neçə ağacı) təyin edirlər. Hətta bunun üçün onlar bütün günü belə oxuya bilərlər.*
- *Digər vacib səbəb–erkək quşun öz dişisinin diqqətini cəlb etməsidir. Çünki, onun bir çox rəqibi var, buna görə də dişisinin diqqətini cəlb etməyə çalışmaq vacibdir: oxuması, rəngi, quş rəqsləri, həmçinin görüşmələri ilə.*
- *Səslər - həm də ünsiyyət üçün istifadə olunur. Xüsusilə desək, bir quş zəng siqnalları ilə digər quşu, ən əsası balalar valideynlərini çağıra bilər. Buna ən çox sıx meşələrdə rast gəlmək olur. Bir qayda olaraq, zəng siqnallarına bənzəyir və nağmədən bir qədər fərqlənir.*

**Nəğməkar quşlar - insanlar tərəfindən nəğmə kimi qəbul edilən səsi avazlı quşlardır.Yer kürəsində onların beş mindən çox növü var.**

Bütün quşlar səs çıxarma qabiliyyətinə malikdir. Ancaq insan xüsusi avazlı quşların səsindən zövq alır. Onların səsi təkcə qulaqlarımızı deyil, ruhumuzu da oxşayır. Çoxlarına tanış olan bu “oxuyan” quşlar yuvalarında cüt və daha çox sayda olaraq dünyanın müxtəlif ölkələrində yaşayır və insandan ürkmürlər. Bəzi ovçular onları tutur. Bunu, onları yemək üçün deyil, qəfəsdə saxlamaq məqsədilə edirlər. Qısaca deyək ki, bu cür quşlar öz dimdik quruluşuna görə dörd yerə bölünür.



## BÜLBÜL

Bülbül quşu xalq tərəfindən dünyanın ən səs-küylü quşu kimi tanınır. Bu quşlar mahir lələkli müğənnilər hesab edilir. Onların axşam “konsertləri” ümumiyyətlə xüsusi tərifə layiqdir! Maraqlıdır ki, bütün bülbüllər öz trillərinin əla ifaçısı deyillər. Onların arasında həm öz işinin əsl ustaları, həm də çox yaxşı ifaçıları var. Bunun səbəbi səs şücaətinin bu quş növünün anadangəlmə xüsusiyyəti deyil.

## LARKS



Larks gözəl oxuyur, amma bir az qəribədir. Onların oxuması mütləq uçuşla müşaiət olunur: quş uçur və oxumağa başlayır. O, torpaqdan nə qədər yüksəkdə uçursa, bir o qədər ucadan oxuyur. Quş enəndə onun oxuması kəskin olur, yerdən 20 metr aralıda isə lark tamamilə səssizdir. Gülməli odur ki, yalnız erkək larks vokal bacarıqlarına malikdir. Bu zaman qadınlar sadəcə yerdə oturub bəylərini dinləyirlər.





## ORİOLE

Bu quşun qara ləkəli, parlaq və sarı lələyi insanda unudulmaz təəssürat yaradır. Orioleni təbiətdə görmək çox təsadüfdür. O ən çox ağacların və ya otların yarpaqlarında mükəmməl gizlənir. Fleyta səslərinə bənzəyən trillər çıxarır və onun oxumasını dünyanın ən böyük virtuozunun oyunu ilə müqayisə etmək olar. Ancaq birdən gözəl səslər dəyişilərək mart pişiklərinin fəryadlarına bənzər dəhşətli bir fəryadla əvəzlənir - bu, heç də o demək deyil ki, oriole boğulub və ya avazlı səsini itirib. O, yaxınlarına təhlükənin yaxında olduğunu xəbər verir.










# "Sualtı fantaziya"



3 nömrəli UGİM-nin foesində rəssam Nərmin Abdullayevanın rəhbərlik etdiyi "Palitra" rəsm studiyasının üzvlərinin olduqca rəngarəng və gözəl rəsmləri sərgilənir. Sərgidə müxtəlif mövzulu rəsmlər görmək olar. Diqqətimizi çəkən "Sualtı fantaziya" mövzusunda olan rəsmlərlə sizi də tanış etmək istərdik.



Qurbanova Ayan 12 yaş



Süleymanlı Nəzrin 13 yaş



Rzayeva Zivər 15 yaş



Nədiyeva Zəhra 10 yaş



Presnyakova Viktoriya 13 yaş





Kşnyakina Anastasiya 15 yaş



İsmayılova Nərmin 14 yaş



Həsənova Xatirə 14 yaş



Həsənova Cəvahir 14 yaş



Hacılı Nigar 13 yaş



Bəxtiyarova Fidan 12 yaş



# Məntiqi sual

## Tangram

Sevimli dostlar, heç düşünmüsünüzmü tapmacalar necə yaranıb? Rəvayətə görə, tapmaca bir neçə min il əvvəl üç qədim Çin müdriki tərəfindən imperatorun oğlu üçün yaradılmışdır. Hökmdar istəyirdi ki, oğlu sadə bir oyun vasitəsilə riyaziyyatın başlanğıcını dərk etsin. O, ətraf aləmə rəssamın gözü ilə baxmağı öyrənsin, filosof kimi səbirli olsun, mürəkkəb şeylərin sadədən ibarət olduğunu görsün.

“Shi-Chao-Tyu” belə yarandı - yeddi hissəyə kəsilmiş bir kvadrat:





5 üçbucaq (2 böyük, 2 kiçik, 1 orta), kvadrat və paraleloqram.

Tangramdakı “sərbəst” oyunun mahiyyəti mozaika prinsipinə uyğun olaraq mövcud hissələrdən hər cür fiqurları toplamaqdır: insanlar, heyvanlar, quşlar, və s. kiçik məktəbəqədər uşaqlar tangram fiqurlarını hazır nümunələr üzərinə qoymaqla, inkişaf etdirici oyunlara cəlb edilirlər.

5-7 yaşlı uşaqların əksəriyyəti kəsilmiş fiqur və detalların ölçülərinin fərqli olmasına baxmayaraq, üzərində cavabi təsvir edilmiş fiqurların modellərini birləşdirirlər.

Adətən, 6-7 yaşlı uşaqlar tanqramı bir tapmaca kimi qavraya bilirlər.

Belə ki, kartda təsvir edilən fiqurun siluetinə baxaraq tanqramın elementlərindən hazır modeli qurmaq olar.

Kağızdan, kartondan və ya digər kvadratdan tangram elementlərini kəsin və başlanğıc üçün yuxarıdakı şəkildəki kimi məşhur fiqurlardan birini - qaçan adamı yığmağı təklif edirik.

2 tapmaca qaydasını yadda saxla:

1) tapmacanın bütün 7 parçasından istifadə etməlisiniz;

2) rəqəmlər üst-üstə düşməməlidir.





“Alisa və onun möcüzələr ölkəsindəki sərgüzəştləri” haqqında hekayələr yazan məşhur yazıçı Lyuis Kerroll azyaşlı dostlara tapmacalar qurmağı və məntiq öyrətməyi sevirdi.

O, kiçik pərəstişkarlarına tez-tez bu tapmacanı ünvanlayırdı:

Tapmacanın düzgün yerinə yetirilməsi üçün xüsusi tapşırıqlar, şərtlər verilir:

- *karandaş kağızdan qoparılmamalıdır;*
- *bir yerə karandaşla iki dəfə çəkmək olmaz;*
- *xətləri keçmək olmaz.*



İki dost stolüstü tennis oynayırdılar. Maraqlı oyun getdikcə sürətlənməyə başladı. Uşaqlardan biri zərbənin gücünü hesablamadı və top yan tərəfə uçdu. Top yerdən qazılmış borunun dibinə düşdü. Onların isə cəmi bir topu var idi. Borunu qazmaq istədilər. Lakin onlarda gərəkli ləvazimat yox idi, yalnız böyük bir su şüşəsindən başqa.

*Əziz oxucular, sizcə uşaqlar tennis topunu necə əldə etdilər?*



3 toyuq üç gündə 3 yumurta yumurtladı. Eyni toyuqlar 12 gündə neçə yumurta yumurtlayacağını müəyyənləşdirin.

# Balaca şahzadədən ilhamlanan gözəl kağız sənəti



Uşaq nağıl kitablarının gözəl illüstrasiyalarının cazibəsi bizi tez-tez dayanıb xəyal qurmağa vadar edir. Balaca Şahzadənin pərəstişkarları bu klassik nağıldan ilhamlanaraq “Balaca Şahzadə” adlandırılan bu gözəl kağız sənətkarlığını xüsusilə sevəcəklər.

















